*Təbrizdə Əlvənd Mirzənin məğlub olması xəbəri Bağdadda vahimə və həyəcanla qarşılandı. Sultan Murad əmisi oğlu Əlvənd Mirzənin məğlubiyyət xəbərindən əslində, o qədər də təəssüflənmirdi, o, düşünürdü ki, əmisi oğlunun məğlubiyyəti gələcəkdə onun keçmiş Ağqoyunlu səltənətinin bütün hüdudlarına yiyələnməsi üçün şərait yaradar. Bu zaman Sultan Murad Şah İsmayılın necə bir qüvvəyə malik oldluğunu hələ bilmirdi. O, Əlvənd Mirzənin məğlubiyyətini Şah İsmayılın gücü ilə yox, əmisi oğlunun bacarıqsız sərkərdə olması ilə bağlayırdı.*

*Sultan Murad da öz əyanlarını yanına çağırıb Təbrizdə baş verən hadisələri müzakirə eləmək qərarına gəldi.*

*Bu vaxt Əlvənd Mirzə Ağqoyunlu sarayından qəsb eləyib götürdüyü xəzinənin gücünə yolboyu təzədən qoşun toplayaraq, üzü Bağdada tərəf hərəkət etməkdəydi.*

*Həm Sultan Muradın sarayında baş verən hadisələr, həm də Əlvənd Mirzənin yenidən qoşun toplamaqla Qızılbaşlara qarşı yeni döyüş planı qurmaq haqqında xəbərlər bir-birinin arxasınca Təbrizdə Şah İsmayıl sarayına yetməkdə idi.*

*Əlvənd Mirzənin Təbrizdən rüsvayçı məğlubiyyətlə baş götürüb üzü Cənub tərəflərə üz tutmasından sonra Şah İsmayıl onu təqib etmək fikrində deyildi. Biləndə ki, Əlvənd Mirzə yenidən qoşun toplamaqla məşğuldur... bu artıq onu düşündürməli oldu. Ona görə də Şah İsmayıl fürsəti heçə verməyərək, tezliklə Əlvənd Mirzəni təqib etmək qərarına gəldi. Ancaq Şah Əlvənd Mirzənin təqib olunması haqqında qərarını birbaşa vermək istəmirdi. Ona görə yox ki, o, bu səfərə çıxmaqdan ehtiyat edirdi. Xeyr, şah anlamışdı ki, Əlvənd Mirzə artıq onun zərbi-dəstini görüb. Şübhəsiz, Qızılbaşların necə iradə və inadla vuruşduqlarını da bu tezlikdə unutmaz. Artıq Şahın nəzərində Əlvənd Mirzə güclü rəqib deyildi...*

# ÇALDIRANA GEDƏN YOL

## *romandan səhifələr*



***Hüseynbala MİRƏLƏMOV***

*(Əvvəli ötən saylarımızda)*

Şah İsmayıl Təbrizdə öz əmrləri ilə kiçik müşavirə keçirdi.

Yenə birinci Hüseyn Lələ bəy danışmalı oldu:

- Şahım, mürşidim, pənahım, sənin zəfər qılıncın Allahın qüdrəti ilə elə itilənib ki, onu dağa da çalsan, parçalayar. İndi belə bir vaxtda biz oturub gözləyə bilmərik ki, Əlvənd Mirzə əmisi oğlu Sultan Muradla birləşsin.

Şah lələsinin dediklərini diqqətlə dinlədikdən sonra soruşdu:

- Bəs Hüseyn Lələ bəyin təklifi nədir?

- Mən belə başa düşürəm ki, sonuncu döyüşdən sonra şahın Təbrizdə qalıb hərbi sursat işləri ilə, dövlətin digər əmin-amanlıq işləri ilə məşğul olması daha vacibdir. Əlvənd Mirzəni təqib etməyi bizim çox igid sərkərdələrimiz də bacarar. Bunu deyib ətrafdakı əmirləri və ordunun adlı-sanlı sərkərdələrini nəzərdən keçirdi.

- Bəs Lələ bəy kimi məsləhət bilir? - şah yenə soruşdu.

Hüseyn Lələ bəy bir anlıq tərəddüd etsə də, tez şahın sualına cavab verdi:

- Ey aləmlərin qibləsi, mən belə düşünürəm ki, müqəddəs yolda canını verməyə hazır olan hər bir Qızılbaş əsgəri döyüşdə hökmdarı öz yanında hiss eləyəcək. Bu işi hökmdar hansı sərkərdəyə tapşırsa belə istəyimiz uğurla başa varar.

Hüseyn Lələ bəyin bu sözlərindən sonra Məhəmməd xan Ustaclı ayağa qalxıb təzim elədi:

- Əgər hökmdar rəvac bilsə, bu yüngül işin arxasınca özüm gedərəm, - dedi.

Məhəmməd xan Ustaclının sözlərindən sonra yer-yerdən səslər gəldi:

- Hökmdarın hər bir sözü bizim üçün Allahın hökmüdür.

- Hökmdarın yolunda başımız da qurbandır.

- İnşallah, tezliklə Əlvənd Mirzə əhvalatı xətm olar.

Son illər, yəni Şah İsmayılın taxta çıxmasından ötən vaxt onu təkcə yaş sarıdan böyütməmişdi, həm də hər hansı bir məsələni müzakirə edərkən hər kəsi axıracan təmkinlə dinləmək sonra öz hökmünü də vermək vərdişi də yaratmışdı. Dövlətin sütunu olan əmirlərin, adlı-sanlı sərkərdələrin yüksək əhval-ruhiyyəsini görmək ona fərəh bəxş edirdi. O, öz əmrlərini və sərkərdələrini hörmət və qürurla süzdü. Yalnız bundan sonra hamının gözlədiyi hökmü verdi. Tezlikcə Əlvənd Mirzənin arxasınca gedəcəyik. Biz Əlvənd Mirzəni Sultan Muradla birləşməmiş yaxalamalıyıq. Düşünürəm ki, Allah haqq işin tərəfindədir. Böyük Allahın qüdrəti ilə bizim zəfər qılıncımız düşmənin başına enər. Dünyanı ona qaranlıq eləyər.

...Əlvənd Mirzənin qoşunları ilə Qızılbaşlar Həmədan tərəfdə qarşılaşdı. Cəmi bircə günlük döyüşdə Əlvənd Mirzənin bütün qoşunları darmadağın oldu. Çünki Əlvənd Mirzə qoşunlarını say hesabı ilə cəmləyə bilsə də, hələ qədərincə döyüş təliminə imkan tapa bilməmişdi. Mərkəzdə Şah İsmayılın özü vuruşurdu. O Əlvənd Mirzənin necə adlı-sanlı sədaqətlisini öz qılıncı ilə həlak etdi. Döyüşü bir tərəfdən izləyən Əlvənd Mirzə Şah İsmayılın sürətlə ona tərəf yaxınlaşdığını görüb vahimələndi. Sanki ölümün qoxusunu duydu. Bununla da əli yerdən-göydən üzülən Əlvənd Mirzə başındakı kiçik bir dəstə ilə Bağdada üz tutdu. Onun məramı burada Sultan Muradla görüşüb ondan kömək almaq idi.

Əlvənd Mirzənin qalan qoşunu hər tərəfdən mühasirəyə alındı. Qoşunun döyüşmək taqəti yox idi. Ona görə Qızılbaşların «var olsun şahımız» sədaları Əlvənd Mirzənin qoşunun qalan hissəsində qorxu və həyəcan yaratdı. Şeypurlar çalındı. Şah döyüşü dayandırmaq əmri verdi. Carçılar elan elədilər ki; «Hər kim Şah İsmayılın tərəfinə keçsə, canını və nəslini xilas edər. Ancaq bu şərtlə ki, gərək canidildən şahın təriqətini qəbul etdiyini bildirsin, şaha sədaqət andı içsin».

Əlvənd Mirzənin qoşunundan min nəfərə qədər Təbriz və Təbriz ətrafından olanlar - ərdəbillilər sədaqət andı içdilər. Qalan üç min nəfərdən çox adam baş götürüb səhranın dərinliklərinə tərəf getdilər. Onlardan az qismi Əlvənd Mirzəyə özünü yetirsə də, bunlar Əlvənd Mirzə üçün qüvvə deyil.

Əlvənd Mirzənin Bağdad yolunda başına gələnlər onu bir qədər də sarsıtdı. Demək olar ki, çox yazıq və ruhdan düşmüş halda Sultan Muradın yanına getdi.

Əlvənd Mirzə Sultan Muradın hüzuruna yetəndə özünü cəmləyib qürurlu və namlı göstərmək istədi. Ancaq əmisioğlu Muradın soyuq baxışları bir anda onun qürurunu yerlə-yeksan elədi. Murad Mirzə ayağa durub əmisi oğluna tərəf iki addım atdı. Əlvənd Mirzə qollarını açıb onun üstünə yeridi, bərk qucaqladı. Az keçməmiş Sultan Murad üzündə, boyun-boğazında Əlvənd Mirzənin göz yaşlarını hiss etdi. Axır ki, onlar bir-birindən aralandılar. Sultan Murad heç nə demədi.

Birinci Əlvənd Mirzə dillənməli oldu:

- Əmioğlu, gördün də, bu Allahın bəlası ilə qarşılaşmaq mənim başıma nələr gətirdi.

- Sən babamız Uzun Həsənin ruhunu xəcil elədin. Bir Ərdəbil cocuğu ilə də bacara bilmədin. Sənin məğlubiyyətin əslində ona qol-qanad verdi.

- Əgər sən vaxtında köməyə gəlsəydin... Əlvənd Mirzə sözünün gerisini gətirmədi.

- Mən İsmayılın gücünü bilmədiyim halda gəlib sənə qoşulsaydım, Allah bilir mənim halım necə olardı? Bir də ki, sən əvvəlcə onunla tək vuruşmaq iddiasında idi. Elə bilirdin ki, qalib gəlib Ağqoyunlu səltənətinin bütün torpaqlarını öz əlində cəmləyəcək, sonra da mənimlə qılınc gücünə danışacaqsan.

Murad Mirzənin bu sözləri Əlvənd Mirzəni daha da sarsıtdı, hətta onun gizli niyyətindən xəbərdar olan əmisioğlunun baxışları qarşısında tablamadı. Başını bir az da aşağı dikdi. Daha heç nə demədi.

Onda Murad Mirzə təkrar soruşdu:

- Bəs sənin məramın nədir, indi neyləmək istəyirsən?

- Əgər məsləhət olsaydı, biz qüvvələrimizi birləşdirib İsmayılın üzərinə gedərdik.

Sanki Murad Mirzəni ilan çaldı. Sərtliklə başını qaldırıb düz Əlvənd Mirzənin önünə gəldi. Onun gözlərinin içinə baxıb qışqırdı:

- Hanı sənin qüvvən? Hələ Bağdada çatmamış Qasım bəyin kiçik dəstələrinə qarşı da duruş gətirə bilmədin. Səninlə gəlmiş qoşunun tör-töküntüsü də Bağdad ətrafında ac-yalavacdır. İndi istəyirsən ki, Şah İsmayıl sənin burada olmağını bəhanə eləyib, bu tezliklə Bağdada qoşun çəksin. Bizim də hələ döyüş hazırlığımız yoxdu.

- Bəs onda Murad Mirzə mənə nə məsləhət verir? - Əlvənd Mirzə soruşdu.

- Sənin qoşun dediyin adamlarına Diyarbəkirə qədər çatası ərzaq, geyim verərəm, ancaq tezliklə buradan çıxıb getməlisən.

Bu vaxt Şah İsmayıl Həmədan Ucan tərəflərdə azacıq istirahət edəndən sonra Təbrizə qayıtmaq əmri vermişdi. Hələ ki, ölkədə sakitlik idi. Şah İsmayıl öz qüvvələrini gələcək qüvvələri dəf etmək üçün yenidən təşkil eləməyə başlamışdı. Təbrizdə hərbi emalatxanalar, silah-sursat hazırlayırdı. Şirvan, Qarabağ, Muğan tərəflərə namələr göndərilirdi. Yerli əmrlərdən canlı qüvvə istənilirdi.

1505-ci ilin yazbaşı vaxtlarında Təbrizə xəbər çatdı ki, Əlvənd Mirzə Diyarbəkir tərəflərdə ruhdandüşmə və sarsıntı xəstəliyindən sükut vadisinə köç eləyib. Onun ətrafında olan qüvvələr isə Sultan II Bayazidin göndərdiyi xəbərlərdən yapışaraq onun tərəfinə keçiblər. Və bu vaxt Kürd Hacı Rüstəmdən cavab məktubu Sultan II Bayazidə çatmışdı. Kürd Hacı Rüstəm yazırdı: «Tanrının himayəsində olan, aləmə zinət verən səltənət sahibinin - Allah onun məqamını uca tutsun - hüzuruna ərz edilir: icra edilməsi mütləq hökm sahibi olan və nemətləri bəxş edən Allahın əmri kimi vacib olan fərmanınız ən yaxın və seçilmiş adamlarınızın dirəyi olan Keyvan Çavuş - Allah onun qədir-qiymətini artırsın - vasitəsilə xoşbəxtlik zirvəsinin və səadət bürcünün göyərçin quşu kimi şərafətli (şəkildə) gəlib çatmış oldu və xoşbəxtlik verən gəlişi ilə qədir-qiymətimizi artıraraq təşəkkür ədası ilə belə dedi:

Günəş öz lütfü ilə əgər yerdən bir zərrəni qaldırsa,

Günəşin lütfündən başqa onda heç bir nöqsan olmaz!

Bizi (doğru yola) yönəldən Allaha həmd olsun!

Batil məzhəbdən olan qızılbaşların - Allahın lənətinə gəlib, məhvə məhkum olsunlar! - vəziyyəti haqqında məlumat əldə etmək üçün göndərdiyiniz sifarişə gəldikdə, o zalım tayfanın hazırkı vəziyyətləri belədir: Əlvənd xana zərbə endirib İraqi-əcəmə getdilər. Orada Murad xana qalib gəlib, ordusunu darmadağın elədilər. İraqi-ərəbdə Pırnakların işini bitirdilər, Misir çərkəzləri ilə sülh bağlayaraq müttəfiq oldular. Hazırda Məraş və Diyarbəkirə doğru yönəliblər. Onların zülmündən İranın vəziyyəti pərişandır. Məmləkət və vilayətlərin əksəriyyəti onların zülm və işgəncələri ilə viran olmuşdur. Allahın fəzilətindən ümidimiz budur ki, uca Allahın istəyi ilə Allah yolunda döyüşlərindən mizraq və nizələri, müsəlman mücahid döyüşçülər və zəmanənin şəhənşahının qan fışqıran oxları vasitəsilə bu zalım dəstənin kökü kəsilib, məhv edilsin.

Fərmanınızın qalan hissəsi icra ediləcəkdir». Sultan II Bayazid məktubu özü oxudu. Bir az gözlərindən aralayıb fikrə getdi, sonra yenə oxudu. Deyəsən, rəngi avazımış, əlləri də əsirdi.

*(Davamı var)*